Better research, better policy, better reform

CESD | CENTER FOR ECONOMIC & SOCIAL DEVELOPMENT

Global Think-Tank

# Azərbaycanın dövlət büdcəsi 2025: İmkanlar və Çağrışlar

**Kəramət İsmayılov**

Center for Economic and Social Development (CESD)
Caspian Plaza, 3rd Block, 14th floor
J.Jabbarli str. 44,
Baku, Azerbaijan
Phone: (99412) 5943665
Fax: (99412) 5943665
Email: info@cesd.az
URL: www.cesd.az

© CESD Press

**Bakı, Yanvar 2025**

**Mündəricat.**

1.Giriş.
2. Azərbaycanda makroiqtisadi vəziyyət.
3.2025 ci il üçün makroiqtisadi proqnozlar.
4.Nəticə və təkliflər.
5.İstifadə olunan ədəbiyyat və linklər.

Abstract.

The purpose of the study is to analyze and evaluate the current state of the state budget of Azerbaijan for 2024, in accordance with the requirements of the country's dynamic, economic and social development, and the budget forecast indicators for 2025. The study examines the mechanisms of the impact of the structure of budget expenditures on economic development.

The applied significance of the study is to examine the current socio-economic situation in the economy of Azerbaijan, which is essentially different from previous years, against the background of geopolitical and macroeconomic processes taking place in the world in recent years. Against the background of the tension of international relations, the possibilities of neutralizing the impact of risks that may arise in trade, supply and financial chains on the country's economy have been analyzed.

Here, the budget process is justified in accordance with new requirements based on the analysis of the dynamics of the budget revenue and expenditure system. It is shown how the effective redistribution of resources will affect economic development.

**X Ü L A S Ə.**

Tədqiqatın məqsədi - Azərbaycan 2024 cü il dövlət büdcəsinin mövcud vəziyyətini araşdırmaqla, ölkənin dinamik, iqtisadi- sosial inkişaf tələblərinə müvafiq olaraq və 2025-ci ilin büdcə proqnoz göstəricilərini təhlil edib qiymətləndirməkdir. Araşdırmada büdcə xərclərinin strukturunun iqtisadi inkişafa təsir mexanizmləri araşdırılır.

Tədqiqatda son illərdə dünyada gedən geosiyasi və makroiqtisadi proseslər fonunda Azərbaycanın iqtisadiyyatında mahiyyət etibarilə əvvəlki illərdən fərqli makroiqtisadi vəziyyətin yaranması şəraitində mövcud sosial - iqtisadi vəziyyətin araşdırılmışdır. Beynəlxalq münasibətlərin gərginləşməsi fonunda ticarət,təchizat və maliyyə zəncirlərində yarana biləcək risklərin ölkə iqtisadiyyatına təsirinin neytrallaşdırılması imkanları təhlil edilmişdir.

Burada büdcə gəlirləri və xərcləri sisteminin dinamikasının təhlili əsasında büdcə prosesinin yeni tələblərə uyğun əsaslandırılması elmi yenilik qismində dəyərləndirilə bilər.Resursların yenidən effektiv bölgüsü iqtisadi inkişafa necə təsir edəcəyi göstərilir.

Açar sözlər:dövlət büdcəsi, büdcə gəlirləri və xərcləri , makroiqtisadi göstəricilər, ÜDM,neft qaz və qeyri neft qaz sektoru sektoru.

## Giriş.

Məlum olduğu kimi hər bir ölkənin iqtisadi- sosial siyasətində və bütövlükdə inkişaf kursunda ən vacib istiqamətlərindən biri dövlət büdcəsi və büdcə prosesinin təşkili qarşısında qoyulan vəzifələrdir. Dövlət büdcəsi bildiyimiz kimi dövlətin həm mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılması və həmçinin istifadə edilməsinin ən əsas maliyyə planı olmaqla dövlətin funksiyalarının və vəzifələrinin həyata

keçirilməsində həlledici rol oynayır. Ölkədə davamlı inkişafın dinamizmini qorumaq, beynəlxalq proseslərə optimal və pozitiv cavab vermək üçün dövlətin əsas maliyyə sənədi olan büdcənin və büdcə prosesinin elmi surətdə əsaslandırılmış prinsiplərə uyğun təşkilini və onun üzərində maliyyə nəzarətinin gücləndirilməsini obyektiv zərurətə çevirmişdir.

Qeyd etmək lazımdır ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat, xərcləri isə 41 milyard 367,6 milyon manat proqnozlaşdırılır. Büdcə xərclərinin daha çox iqtisadi inkişafa təsir edən amillər olması üçün struktur islahatlarının uğurlu davam etdirilməsi, maliyyə təminatı büdcə sistemi vasitəsilə reallaşdırılan sosial və investisiya layihələrinin, eyni zamanda iri maliyyə tutumlu obyektlərin və texnologiyaların iqtisadi maliyyə əsaslandırılmasının daha çox optimallaşdırılması və həmin layihələrin gələcəkdə baş verə biləcək əlavə maliyyə öhdəliklərinə səbəb olmamağı üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi 2025 ci ildə və sonrakı illərdə də qarşıda duran mühüm vəzifələrdir.

## Azərbaycanın 2024-cü ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri.

2024-cü ilin yanvar-oktyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 103,5 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir (Cədvəl 1). Ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,7 faiz, qeyri neft-qaz sektorunda isə 6,8 faiz artmışdır. Əlavə dəyərin 37,1 faizi sənaye, 10,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,3 faizi tikinti, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 19,2 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,0 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 10146,5 manata bərabər olmuşdur. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar-oktyabr aylarında 53,3 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,5 faiz, qeyri neft-qaz sektorunda isə 8,7 faiz artmışdır. Sənaye məhsulunun 64,0 faizi mədənçıxarma sektorunda, 30,3 faizi emal sektorunda, 4,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,5 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 6,8 faiz artmışdır. Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 68,4 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 58,4 faiz, mebel istehsalı 40,7 faiz, hazır metal məmulatlarının istehsalı 38,9 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 30,3 faiz, elektrik avadanlıqlarının istehsalı 29,6 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 22,3 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,4 faiz, tikinti materiallarının istehsalı 19,6 faiz, içkilərin istehsalı 18,1 faiz, tütün məmulatlarının istehsalı 14,3 faiz, kimya sənayesi məhsullarının istehsalı 10,3 faiz, kağız və karton istehsalı 9,7 faiz, qida məhsullarının istehsalı 8,7 faiz, kompüter, elektron və optik

məhsulların istehsalı 4,3 faiz, geyim istehsalı 3,9 faiz, neft məhsullarının istehsalı 2,6 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 0,2 faiz artmış, toxuculuq sənayesi məhsullarının istehsalı 4,8 faiz, sair sənaye məhsullarının istehsalı 6,8 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 8,0 faiz, poliqrafiya məhsullarının istehsalı 24,9 faiz, maşın və avadanlıqların istehsalı 43,2 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 52,8 faiz azalmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,4 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 8,0 faiz artmışdır. İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 noyabr 2024-cü il vəziyyətinə 911,4 milyon manatlıq hazır məhsul olmuşdur. Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmaq üzrədir. Noyabr ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 195,9 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 0,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 785,6 min ton (1,8 faiz çox) tərəvəz, 1 milyon 118,2 min ton (3,1 faiz çox) meyvə və giləmeyvə, 914,5 min ton (7,6 faiz az) kartof, 490,0 min ton (11,8 faiz çox) bostan məhsulları, 200,6 min ton (7,8 faiz az) üzüm, 164,5 min ton (31,5 faiz çox) şəkər çuğunduru, 139,5 min ton (17,4 faiz az) pambıq, 31,1 min ton (6,3 faiz çox) günəbaxan, 5588,1 ton (34,0 faiz çox) tütün, 1041,7 ton (5,5 faiz az) yaşıl çay yarpağı yığılmışdır. 2024-cü ilin yanvar-oktyabr aylarında diri çəkidə 491,4 min ton ət, 1880,3 min ton süd, 1 milyard 917,6 milyon ədəd yumurta, 14,8 min ton yun, 239,4 ton barama istehsal olunmuşdur. 2023- cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ət istehsalı 1,2 faiz, süd istehsalı 0,8 faiz, yumurta istehsalı 4,6 faiz artmış, yun istehsalı 2,1 faiz, barama istehsalı 32,9 faiz azalmışdır. 2023-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,0 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,5 faiz, bitkiçilik məhsulları istehsalı 0,5 faiz artmışdır. 2024-cü ilin yanvar-oktyabr aylarında əsas kapitala 14 milyard 391,1 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz az investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,1 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 2,0 faiz azalmışdır. İstifadə olunmuş investisiyanın 7 milyard 308,6 milyon manatı və ya 50,8 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 162,4 milyon manatı (35,9 faizi) xidmət sahələrinə, 1 milyard 920,1 milyon manatı (13,3 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 11 milyard 943,1 milyon manatını və ya 83,0 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 10 milyard 409,9 milyon manatı və ya 72,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-oktyabr aylarında 193,8 milyon ton yük və 1 milyon 695,0 min sərnişin daşınmışdır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,1 faiz, sərnişin daşınması isə 9,2 faiz artmışdır. Yüklərin 59,3 faizi avtomobil, 28,8 faizi boru kəməri, 8,0 faizi dəmir yolu, 3,7 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 88,2 faizi avtomobil, 11,1 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır. İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 2 milyard 863,6 milyon manatlıq xidmətlərin 72,3 faizi əhali sektoruna aid

olmuşdur. 2024-cü ilin yanvar-oktyabr aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 84,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. 2024-cü ilin yanvar-oktyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 48 milyard 343,0 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 10 milyard 192,4 milyon manatlıq ödənişli xidmət göstərilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 8,3 faiz artmış, ticarət şəbəkəsində 26 milyard 472,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 21 milyard 870,2 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 34 milyard 173,9 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 19 milyard 530,7 milyon dollarını və ya 57,2 faizini ölkədən ixrac olunmuş məhsulların, 14 milyard 643,2 milyon dollarını (42,8 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 4 milyard 887,5 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,5 faiz, real ifadədə 4,9 faiz, o cümlədən idxal 1,2 faiz, ixrac isə 7,1 faiz azalmışdır. 2024-cü ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı 2 milyard 465,1 milyon dollar təşkil etmiş və 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən faktiki qiymətlərlə 1,3 faiz artmış, real ifadədə isə 10,3 faiz azalmışdır. 2024-cü ilin yanvar-oktyabr aylarında istehlak qiymətləri indeksi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 101,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,6 faiz, qeyri-qida malları üzrə 101,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 103,6 faiz təşkil etmişdir. 2024-cü ilin yanvar-sentyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,0 faiz artaraq 993,0 manat təşkil etmişdir. 2024-cü ilin yanvar-oktyabr aylarında əhalinin gəlirləri nominal ifadədə 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz artaraq 68,1 milyard manat olmuşdur. Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2024- cü ilin yanvar-oktyabr aylarında dövlət büdcəsinə 31 milyard 542,5 milyon manat vəsait daxil olmuş, büdcədən 28 milyard 108,2 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 3 milyard 434,3 milyon manatlıq profisit yaranmışdır. Mərkəzi Bankın məlumatlarına görə, 2024-cü il oktyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 28 milyard 404,6 milyon manat təşkil etmiş, onun 23 milyard 827,9 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,7 faizini təşkil etmişdir. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2024-cü il oktyabr ayının 1-nə 14 milyard 164,0 milyon manat olmuşdur. 2024-cü ilin yanvar-oktyabr aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avroya –1,85 manata, 100 Türk lirəsinə–5,24 manata, 100 Rusiya rubluna –1,87 manata bərabər olmuşdur. 2024-cü ilin yanvar-sentyabr aylarında əhalinin sayı 33671 nəfər və ya 0,3 faiz artaraq 2024-cü il oktyabr ayının 1-i vəziyyətinə 10214441 nəfərə çatmışdır.

DGK-nın 01.09.2024 ci il tarixinə olan məlumatlarına əsasən ixrac həcminin azalması ilə bağlı olaraq xarici ticarət dövriyyəsi azalmışdır.İdxalda isə dövlət sektoru ilə bağlı olan nominal ifadədə 63% artım olmuşdur.DGK-nın cari dövr ərzində gəlirləri 4 milyard 378.2 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5.3% artım olmuşdur.

Cari ilin 9 ayı ərzində əsas kapitala 12 milyard 711.1 milyon manat həcmində investisiya yönəldilmişdir ki,bu da əvvəlki illə müqayisədə 3.9% azalmışdır.İnvestisiya və istehlakın formalaşması məcmu tələbin aktivliyinin daxili faktorlar hesabına baş vermişdir. Xarici investisiyaların ilin əvvəlinə sürətlə artması ilin sonuna doğru azalması Ilə müşahidə edilir.

Cədvəl 1. 2024-cü ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri.

| Göstəricinin adı | 2024-cü ilin yanvar-oktyabr ayları, faktiki | | 2024-cü ilin yanvar-oktyabr ayları 2023-cü ilin yanvar-oktyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | manat | ABŞ dolları | |
| Ümumi daxili məhsul, milyon manat (dollar) | 103495,80 | 60879.88 | 104,9 |
| o cümlədən qeyri neft-qaz ÜDM | 68 685,70 | 40403.35 | 106,8 |
| Əhalinin hər nəfərinə düşən ÜDM manat (dollar) | 10 146,50 | 5968.53 | 104,4 |
| Sənaye məhsulu, milyon manat (dollar) | 53 304,30 | 31335.47 | 102,2 |
| o cümlədən qeyri neft-qaz sənayesi | 15 346,20 | 9027.2 | 108,7 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat (dollar) | 14 391,10 | 8465.35 | 95,6 |
| o cümlədən qeyri neft-qaz sektoruna | 9 867,90 | 5804.6 | 98 |
| ondan qeyri neft-qaz sənayesinə | 883,8 | 519.9 | 119,6 |
| Kənd təsərrüfatı məhsulu, milyon manat(dollar) | 11 407,10 | 6710.1 | 101 |
| o cümlədən: bitkiçilik | 5 866,90 | 3451.12 | 100,5 |
| Heyvandarlıq | 5 540,20 | 3258.94 | 101,5 |

| | | | |
|---|---|---|---|
| İnformasiya və rabitə xidmətləri, milyon manat (dollar) | 2 863,60 | 1684.47 | 112,1 |
| Pərakəndə ticarət dövriyyəsi, milyon manat (dollar) | 48 343,00 | 28437.1 | 103,7 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat (dollar) | 10 192,40 | 5995.53 | 108,3 |
| Dövlət büdcəsinin gəlirləri, milyon manat ( milyon dollar) | 31 542,50 | 18554.41 | 119,4 |
| Dövlət büdcəsinin xərcləri, milyon manat (milyon dollar) | 28 108,20 | 16534.24 | 105,5 |
| Dövlət büdcəsinin profisiti, milyon manat ( milyon dollar) | 3 434,30 | 2020.2 | x |
| Əhalinin nominal gəlirləri, milyon manat ( milyon dollar) | 68 097,20 | 40057.2 | 105,8 |
| Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat (dollar) | 6 676,10 | 3927.1 | 105,3 |
| Əhalinin banklardakı əmanətləri, 2024-cü il 01 oktyabr vəziyyətinə, milyon manat ( milyon dollar) | 14 164,00 | 8331.7 | 111,5 |
| Kredit qoyuluşları, 2024-cü il 01 oktyabr vəziyyətinə, milyon manat (milyon dollar) | 28 404,60 | 16708.6 | 123,4 |
| Nəqliyyat sektorunda yük daşınması, milyon ton | 193,8 | | 104,1 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin | 1 695,00 | | 109,2 |

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi.

2025 ci il üçün makroiqtisadi proqnozlar.

Azərbaycan Respublikası Milli Məclisində ölkə Prezidenti tərəfindən parlamentə təqdim edilən “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirələri gedir. Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat, xərcləri 41 milyard 367,6 milyon manat, büdcə kəsirinin yuxarı həddi isə 3 milyard 51,6 milyon manat proqnozlaşdırılır. Layihədə ÜDM-in artım tempi 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempi 4,9 faiz, orta illik inflyasiya 4,6 faiz, xam neftin 1 barelinin qiyməti 70 ABŞ dolları, təbii qazın 1 min kubmetr ixrac qiyməti

242 ABŞ dolları, manatın məzənnəsi isə 1 ABŞ dolları üçün 1,7 manat səviyyəsində nəzərdə tutulub. Layihəyə görə 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41 milyard 367,6 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1 milyard 625,3 milyon manat və ya 4,1 faiz çoxdur. Büdcə xərclərinin strukturunda cari xərclər 60,1 faiz və ya 24 milyard 845,2 milyon manat, əsaslı xərclər 34,1 faiz və ya 14 milyard 122,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,8 faiz və ya 2 milyard 399,6 milyon manat təşkil edəcək. Belə ki, 2025-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri 2024-cü illə müqayisədə 1 milyard 370 milyon manat və ya 8,8 faiz artırılaraq 16 milyard 909,7 milyon manata çatdırılması nəzərdə tutulur. Əhalinin sosial müdafiə və sosial təminat xərcləri üçün 4 milyard 812 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 1 milyard 928 milyon manat və yaxud 5,3 faiz çoxdur. Gəlirlərin 49 faizi və ya 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 51 faizi və ya 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək. 2025-ci il üçün icmal büdcəsinin gəlirləri 43 milyard 910,5 milyon manat, xərcləri 47 milyard 589, 4 milyon manat proqnozlaşdırılır, icmal büdcənin kəsiri isə 3 milyard 678,9 milyon manat təşkil edəcəyi gözlənilir.(Cədvəl 2)

Cədvəl 2. Makroiqtisadi parametrlər üzrə göstəricilər.

| | 2024 | 2025 |
|---|---|---|
| | Gözlənilən. | Proqnoz. |
| ÜDM milyard manat | 124.364 | 129.1776 |
| real artım tempi əvvəlki ilə nisbətən | 4.2% | 3.5% |
| ÜDM illik artımı milyard manat | 1.4 | 4.8 |
| ÜDM neft qaz sektoru milyad manat | 39.6 | 37 |
| real artım tempi əvvəlki ilə nisbətən | 0.3% | 0.5% |
| Neft hasilatı milyon ton | 29.2 | 28.7 |
| real artım tempi əvvəlki ilə nisbətən | -3% | -1.7% |
| Əmtəəlik qaz hasilatı milyard m³ | 37.8 | 38.4 |
| real artım tempi əvvəlki ilə nisbətən | 3.8 % | 1.6% |
| ÜDM q/neft qaz sektoru milyard manat | 84.8 | 92.2 |
| real artım tempi əvvəlki ilə nisbətən | 6.4% | 4.9% |
| Dövlət büdcəsinin gəlirləri milyard manat | 36.4 | 38.3 |
| DNF-dən dövlət büdcəsinə transfer | 12.8 | 14.5 |
| Neft-qaz sektoru üzrə vergi daxilolmaları mlrd.manat | 5.0 | 4.3 |
| Dövlət büdcəsinin xərcləri milyard manat | 39.7 | 41.4 |
| Dövlət borcu (xarici və daxili) milyard manat | 28.1752 | 29.75 |
| Dövlət borcunun ÜDM-ə nisbəti | 22.7% | 23% |
| Orta illik infilyasiya | 2.7% | 4.6% |
| Manatın məzənnəsi AZN/USD | 1.7 | 1.7 |
| Neftin 1 barrelinin qiyməti ABŞ dolları | 80 | 70 |
| Təbii qazın min kubmetr ABŞ dolları | | 242 |

Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə ÜDM - in 50 faizə qədəri büdcə sistemi vasitəsi ilə yenidən bölüşdürülür. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf göstəricilərinə nəzər yetridikdə aydın olur ki, 2024-2028 ci illərdə ÜDM-in 26-29 faizə qədəri dövlət büdcəsinin gəlirləri kimi, formalaşması bir sıra iqtisadi və fiskal faktorlarla

bağlıdır.Aşağıda bu əlqəni izah edən əsas bir neçə səbəbi göstərmək olar:vergi sistemi və dərəcələri,kölgə iqtisadiyyatı,təbii resurs gəlirləri,dövlətin iqtisadiyyatda rolu, makro iqtisadi vəziyyət və sair.Beləliklə ÜDM-in 30%-ə qədərinin büdcə gəliri kimi qeydə alınması bir tərəfdən dövlətinin iqtisadiyyatda rolunun aktivliyini digər tərəfdən vergi siyasəti və iqtisadi strukturun xüsusiyyətlərini əks etdirir.

Ümumi daxili məhsulun bölgüsü və yenidən bölüşdürülməsində büdcənin rolunu aşağıdakı məlumatlardan görmək olar(Cədvəl 3). Dövlət xərclərinin ÜDM-ə nisbəti ölkənin iqtisadi siyasəti üçün vacibdir. Yüksək göstərici sosial sahəyə və infrastruktura əhəmiyyətli dövlət sərmayəsinin yatırılmasını göstərə bilər ki, bu da öz növbəsində əhalinin həyat səviyyəsinin yaxşılaşmasına kömək edə bilər. Bununla belə, həddindən artıq xərclər dövlət borcunun artmasına və inflyasiyaya səbəb ola bilər. Buna görə də bu göstəricidə tarazlıq davamlı iqtisadi inkişaf üçün çox vacibdir. Bu göstəricinin əsas üstünlüyü onun çoxşaxəliliyi və müxtəlif regionlar arasında müqayisə imkanıdır. Bundan əlavə, bu göstərici təhsil, səhiyyə və sosial təminat kimi sahələrdə resursların bölüşdürülməsi üçün istifadə olunur. Mövcud empirik tədqiqatlar etibarlı şəkildə göstərir dövlət xərclərinin müəyyən bir səviyyəsinin olması (ÜDM-in paylarında), bu vaxta qədər onların artması kömək edir iqtisadi artım və onu keçərsə, iqtisadi inkişafa mənfi təsir göstərir. Bu səviyyə inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında əhəmiyyətli dərəcədə fərqlənə bilər. ümumi dövlət xərcləri ÜDM-in 35-40%-ni təşkil edib və bir sıra iqtisadçıların fikrincə (bax: İdrisov, Sinelnikov-Murylev, 2013), mövcud institusional şəraitdə bu hədləri aşmaq iqtisadi artımı stimullaşdırmayacaq.

Cədvəl 3. Dövlət büdcəsi gəlirləri və xərclərinin ÜDM-də xüsusi çəkisi.

| İllər / Göstəricilər | 2024 | 2025 | 2026 | 2027 | 2028 |
|---|---|---|---|---|---|
| ÜDM milyon manat və ya (milyard ABŞ dolları) | 124.000 (72.9) | 129.200 (76) | 133.800 (78.71) | 142.900 (84) | 150.800 (88.71) |
| Dövlət büdcəsinin gəlirləri milyon manat (milyard ABŞ dolları) | 36.388 (21.4) | 36.616 (21.54) | 38.123 (22.43) | 39.152 (23.03) | 39.750 (23.38) |
| ÜDM-ə nisbətən %-lə | 29.3 | 28.3 | 28.5 | 27.4 | 26.4 |
| Dövlət büdcəsinin xərcləri miyon.manat (milyard ABŞ dolları) | 36.458 (21.45) | 39.742 (23.38) | 39.668 (23.33) | 40.797 (24) | 42.378 (24.93) |
| ÜDM-ə nisbətən %-lə | 29.4 | 30.7 | 29.6 | 28.5 | 28.1 |

Proqnozlara əsasən 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft/qaz ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi, 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata qədər, o cümlədən qeyri-neft/qaz ÜDM-in həcmi 117,2 milyard manata qədər artacağı gözlənilir. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,35 faiz, qeyri-neft/qaz ÜDM-in 5,0 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı proqnozlaşdırılır.

Növbəti il üzrə ÜDM-in və qeyri neft qaz ÜDM-in cari il üzrə müqayisədə müvafiq olaraq, 4.8 milyard manat (3.9%) artaraq 124.2 milyard manata və 7.4 milyard manat(8.7%) artraq 92.2 milyard manata çataracağı gözlənilir.Gələn il neft hasilatı 500 min ton azalacağı,əmtəəlik qaz hasilatı 37.8 milyar $m^3$ -dən 38.4 milyard $m^3$-ə çatacağı və ya 2024 -ci ildə 39.6 milyard manatdan azalaraq 37 milyard manat olacağı proqnozlaşdırılır(Şəkil 2).

Şəkil 2.ÜDM, ÜDM qeyri neft-qaz və ÜDM neft-qaz sektorları üzrə milyard manat (milyard ABŞ dolları)




Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.

Gələn ilin "Büdcə zərfi"ndə təqdim edilmiş məiumatlara əsasən neftin qiyməti 70 ABŞ dolları götürülmüşdür.Lakin neft strateji məhsul olduğu üçün onun qiymətinə iqtisadi amillərlə yanaşı siyasi amillər də təsir edir.BMT-nin məlumatlarına əsasən avtomobil sənayesi qlobal ÜDM-nin 3%-ni və nəqliyyat vasitələrinin qlobal istixana qazlarının emissiyalarının 16%-ni təşkil etdiyindən ənənəvi avtomobil bazarı əhəmiyyətli transformasiyaya məruz qalmaqdadır.Buna görə də elektrikli avtomobil istehsalı və ixracatı əhəmiyyətli dərəcədə artmışdır.Çinin bu sahədə sürətlə
irəliləməsi ilə əlaqədar olaraq,qlobal ticarət və təchizat sistemi əhəmiyyətli deformasiyaya uğramaqdadır.Belə ki avtomobil ixracında Çinin 1%-dən 20%-dək artması ABŞ-ın isə 30%-dən 7%-dək enməsi neft və neft məhsullarına olan tələbatın azalmasını,OPEC üzv ölkələrinin hasilatı artırması neftin qiymətinə təsir edən amillərdəndir.Lakin,bununla yanaşı Orta Şərqdə və Rusiya-Ukrayna müharibəsində fonunda artan gərginlik də neftin qiymətinə təsir edir.Maliyyə naziri S.Şərifovin fikrincə "əgər neftin qiyməti enərsə büdcənin Dövlət Vergi Xidməti tərəfindən daxiolmaları 340 milyon manat azalması proqnozlaşdırılır. "Dövlət Neft Fondunun gəlirlərinə gəldikdə isə təsir daha yüksəkdir. Burada söhbət 2 milyard 100 milyon manatlıq təsirdən gedir". Digər tərəfdən ilin əvvəlində 80-85 ABŞ dolları ətrafında olan neft qiymətlərinin ucuzlaşması Cinin elektrikli maşınlara üstünlük verməsi və OPEC ölkələrinin hasilatı artırmaqla bağlı açıqlamaları neftin qiymətinə təsir etmişdir. Lakin, Orta Şərqdə münaqişələrin qızışdığı vaxtda da neftin qiymətində sıçrayışları olmadığından demək olar ki, neftin qiymətini geosiyasi amillər deyil, iqtisadi amillər daha çox təsir edir. Bir çox nüfüzlü təkilatların ,gələn il üçün neftin qiyməti 70-80 ABŞ dollar səviyyəsində olacağı proqnazlaşdırırlar (Cədvəl 3). Təbii qazın min kubmetrinin orta illik ixrac qiyməti baza ssenaridə 2025-ci il üzrə 242,0 ABŞ dolları, 2026-2028-ci illər üzrə isə 236,0 ABŞ dolları olaraq götürülmüşdür.

Cədvəl 3. Brent markalı neft üzrə proqnozlar,ABŞ dollar ilə

| Təşkilatlar | 2024 | 2025 |
|---|---|---|
| **BVF** | 81.3 | 72.8 |
| **DB** | 84 | 79 |
| **AİB** | 83 | 81 |
| **ABŞ Enerji İnformasiya Agentliyi** | 81 | 78 |
| **Avropa Mərkəzi Bankı** | 83.2 | 76.1 |
| **Goldman Sachs** | - | 76 |
| **Fitch** | 80 | 70 |

BVF-nin məlumatlarına əsasən global dövlət borcunun 2024-ci ilnin 100 trln. ABŞ dollar qlobal ÜDM-in 93% - ni təşkil edir.İnkişaf etmiş dövlətlərin çoxunun dövlət borcu ÜDM-nin 100%-i ətrafındadır(Şəkil 3).

Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili dövlət borcu) ümumi məbləği 2024-cü il 1 iyul tarixinə 25 milyard 686,1 milyon manat və ya ÜDM-in 21,2 faizini təşkil etmişdir. İlin əvvəli ilə müqayisədə 2024-cü il 1 iyul tarixinə ümumi dövlət borcunun səviyyəsi mütləq ifadədə 1 milyard164,3 milyon manat və ya 4,3 faiz , ümumi dövlət borcunun ÜDM-ə nisbəti isə 0,6 faiz bəndi azalmışdır.

Gələn ilin büdcə sənədlərinə əsasən, əsaslı vəsait qoyuluşlarına 14 milyard 122.8 milyon manat ayrılacağı nəzərdə tutulub ki,bu da cari ildəkindən 1milyard 253 milyon manat azdır. Belə ki, bu investisiya xərclərinin bir hissəsinin səmərəliliyinə təsir edə bilər.Eyni artımına səbəb də ola bilər.2025-ci ilin büdcəsinə əsasən 56 publik hüquqi şəxsə dövlət sifarişləri üçün 1.1 milyard. manat nəzərdə tutulur ki, bu da bu ilki büdcədə nəzərdə tutulandan 11.2% çoxdur.Büdcədən dövlət müəssisələrinə və ya public hüquqi şəxslərə subsidiya ayrılmasının neqativ cəhətləri çoxdur. Belə ki, bu xəzinədən kənar əməliyyatlar olduğu üçün izlənilməsi çətin olduğu üçün nəzarətdən kənarda qala bilər.

Ortamüddətli dövrdə əsas kapitala olan investisiyalarda orta illik 3,0 faiz artım olacağı proqnozlaşdırılır. 2025-ci ildən 2027-ci ilin sonuna doğru neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında, həmçinin daxili investisiyalarda artım proqnozlaşdırılır.

Məcmu dövlət borcunun 9 milyard 114,2 milyon manatı (5 milyard 361,3 milyon ABŞ dolları) və ya 35,5 faizi xarici dövlət borcunun, 16 milyard 571,9 milyon manatı və ya 64,5 faizi daxili dövlət borcunun payına düşmüşdür. Belə ki,dövlət borcunun artması büdcənin sosial, səhiyyə,təhsil və s. xərclərinin azaldilmasını gətirib çıxara bilər. Gələn ilin büdcəsində dövlət borclarına xidmət xərcləri üzrə 2 milyard 399.6 milyon manat nəzərdə tutulub. Dövlət borcunun artması ölkənin iqtisadi vəziyyətinə,idarəetmə siyasətinə və borcun istifadə məqsədlərinə görə müsbət və mənfi təsirlər göstərə bilər. Belə ki,2025 ci ildə dövlət borclarına xidmət xərcləri kənd təsərrüfatına ayrılan xərclərdən (1 milyard 171.9 milyon manat) 2.05 dəfə çoxdur.Bu təsirlləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Müsbət tərəfləri:

1)İnfrastrukturun inkişafı bu istiqaməttə yönəldilmiş vəsaitlər iqtisadi inkişafı stimullaşdıra bilər.Yollar,körpülər,xəstəxanalar və məktəblər kimi,layihələruzunmüddətli iqtisadi fayda gətirə bilər.

2)İqtisadi inkişafın dəstəklənməsi-dövlət borcu xüsusilə ressesiya dövründə iqtisadiyyatı stimullaşdırmaq üçün istifadə edilərək yeni iş yerlərinin artmasına və iqtisadi fəallığın dəstəklənməsinə kömək edər.

3) Qısamüddətli maliyyə problemlərinin həlli-dövlət borcu,fövqəladə vəziyyətlərdə təcili maliyyə ehtiyaclarını qarşılamaq üçün istifadə edilə bilər.
4)Sosial proqramların dəstəklənməsi-təhsil,səhiyyə və sosial təminat kimi proqramların maliyyələşdirilməsi üçün borc götürülərək əhalinin rifahının artırılmasına və gələcəkdə daha məhsuldar cəmiyyətə töhfə verə bilər.

Mənfi tərəfləri:

1)Faiz ödənişlərinin yükü-dövlət borcunun artması ilə faiz ödənişləri üçün böyük yük yarada bilər.Bu gələcəkdə digər zəruri sahələr üçün az resurs ayrılmasına gətirib çıxara bilər.
2)İnfilyasiya riski-dövlət borcunun çox yüksək olması.
3)Xarici asılılıq-xarici borcun artması ölkənin maliyyə qərarlarını xarici kreditorların marağına uyğunlaşdırmaq məcburiyyəti yarada bilər və iqtisadi müstəqilliyi zəiflədə bilər.
4)Büdcə kəsirinin artması-yüksək borc səviyyəsi,dövləıt büdcəsində balanssızlıq yarada ,borcun ödənilməsi üçün əlavə vergilər tətbiq edilə bilər ki,bu da vətəndaşların rifahını azalda bilər.
5)Etibarlılığın azalması-dövlət borcu dayanıqsız səviyyə çatdıqda ,investorların hökumətə olan inamı azala bilər.Bu borc alınmasının dəyərini artırar və iqtisadiyyatı çətin vəziyyətə sala bilər.

Dövlət borcu düzgün idarəedildiyi halda iqtisadi inkişaf və sosial rifah üçün faydalı ola bilər. Lakin uzunmüddətli perspektivdə borcun dayanıqlığı təmin edilməzsə ,bu iqtisadi risklər və maliyyə problemləri yarada bilər ki, buna görə də borc götürülməsi zamanı məqsədəyönlü və səmərəli yanaşma tətbiq olunmalıdır.

Şəkil 3.İnkişaf etmiş ölkəiərin və inkişaf etməkdə olan ölkələrin dövlət borcunun ÜDM-ə nisbəti, %-lə




Şəkil BVF-in məlumatları əsasında hazılanmışdır.

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2025-2028-ci illər üzrə proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq növbəti ildə 90.1 mlrd.manatdan 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 86.5

mlrd. manatdan 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir.Orta əmək haqqının isə 1080.1 manatdan 1326.4 manata çatacağı gözlənilir(Şəkil 4).

Şəkil 4. Əhalinin gəlir və xərcləri milyard.manatla,orta əmək haqqı manatla




Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Dövlət Sosial Müdafiə Fondunun 2025 ci il üçün gəlirləri 7milyard 676 milyon manat proqnazlaşdırılır ki, bu da 2024 ci illə müqayisədə 726 milyon manat və ya 10.45% çoxdur.Bu artım əsasən məcburi dövlət sosial sığorta haqlarından və büdcədən ayrılan transferlərin hesabına genişlənir.Dövlət Vergi Xidmətinin xətti ilə 2025-ci ildə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 42,3 faizini və ya 15 500,0 milyon manat təşkil edəcəyi proqnazlaşdırılır. Bununla yanaşı, növbəti ildə dövlət büdcəsi gəlirlərinin 12 milyard 781,0 milyon manatı və ya 34,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 6 milyard 600,0 milyon manatı və ya 18,0 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 840,0 milyon manatı və ya 2,3 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 895,0 milyon manatı və ya 2,4 faizi isə sair gəlirlərin payına düşür.

2025-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşımalıdır. Bu tədbirlər çərçivəsində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi və ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi addımlar planlaşdırılmalıdır.

Şəkil 5. ÜDM-in artım,İnfilyasiaya və orta əmək haqqının dinamikası, %-lə



Şəkil Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında İSİM tərəfindən hazırlanmışdır.

Əsas ticari tərəfdaşlarımızdan olan Türkiyə və Rusiya milli valyutalarının məzənnəsinin ucuzlaşması manatın nominal effektiv məzənnəsinə təsir edən amillərdəndir.Digər tərəfdən isə bir çox məhsullar üzrə idxal səviyyəsinin yüksək olması ölkədə infilyasiyaya müsbət təsir edən şərtlərdən biri olaraq qalır.DSK-nın məlumatına görə yanvar-avqust aylarında ölkəyə idxal olunan məhsulların qiymət indekslərində 17% artım olmuşdur.2025-ci və növbəti il üzrə büdcə proqnoz göstəricilərindən və şəkil 5-dən əyani olaraq göründüyü kimi də,infilyasiya səviyyəsi iqtisadi artımdan yüksək olacağı proqnozlaşdırılır .Bunun bir neçə səbəbdən ola bilər,belə ki,bu səbəblərə aiddir: idxal infilyasiyası,pul-kredit siyasəti, iqtisadi artımın struktur xarakteri, büdcə xərcləmələrinin artması,qlobal iqtisadi təsirlər və s. göstərmək olar.

Həm dövlət sektorunda ,həm də ki,özəl sektorda idxal olunan məhsullara daxili tələbin artması fonunda AMB 70 valyuta hərracı keçirmişdir ki,nəticədə 5 milyard 377.5 milyon ABŞ dollar satılmışdır.Xarici valyutaya artan tələbin yüksəlməsi DNF transfertində qənaət imkanalarını məhdudlaşdırmışdır. Belə ki,cari ilin 9 ayı üzrə dövlət büdcəsində nəzərdə tutulmuş xarici valyutalarda daxilolmların (neft-qaz sektoru üzrə podratçı tərəflərin mənfəət vergisi üzrə illik 41.4%) ,fiziki şəxslərin xaricdən daxil olmuş pul baratlarında ötən ilin müvafiq dövrü ilə müqayisədə 51.6% azalması, xarici dövlət borcuna xudmətin 100% icra edilməsi xarici valyutaya tələbi artırmışdır.

Cədvəl 5. 2025-ci il və növbəti üç il üzrə icmal və dövlət büdcəsinin parametrləri

| Göstəricilər | 2023-cü icra | 2024-cü təsdiq olunmuş | Proqnoz | | | |
|---|---|---|---|---|---|---|
| | | | 2025 | 2026 | 2027 | 2028 |
| **İcmal büdcə** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Gəlir | 50049,0 | 43515,0 | 44371,4 | 43929,7 | 45498,7 | 46815,4 |
| Xərc | 40333,3 | 45626,8 | 45867,0 | 47401,5 | 48850,3 | 49922,2 |
| Kəsir (profisit) | 9715,7 | -2111,8 | -1495,6 | -3471,7 | -3351,7 | -3106,8 |
| **Dövlət büdcəsi** | | | | | | |
| **Gəlir** | **35236,4** | **36388,0** | **36616,0** | **38123,3** | **39151,9** | **39753,6** |
| Neft-qaz gəlirləri, *o cümlədən* | 18156,4 | 17769,0 | 17073,0 | 16767,0 | 16555,4 | 15761,2 |
| *DNF-dən dövlət büdcəsinə transfert* | *11737,6* | *12781,0* | *12781,0* | *12781,0* | *12611,4* | *12012,2* |
| Qeyri/neft-qaz gəlirləri | 17080,0 | 18619,0 | 19543,0 | 21356,3 | 22596,5 | 23992,4 |
| **Xərc** | **36457,9** | **39742,3** | **39667,6** | **40797,0** | **41791,0** | **42377,9** |
| Cari xərclər | 20268,1 | 23070,9 | 24957,4 | 25770,4 | 26600,3 | 27561,4 |
| Əsaslı xərclər | 15007,3 | 15375,8 | 12310,6 | 12399,5 | 12261,1 | 11794,4 |
| Dövlət borclarına xidmətlə bağlı xərclər | 1182,5 | 1295,6 | 2399,6 | 2627,1 | 2929,6 | 3022,1 |
| **Kəsir (profisit)** | **-1221,5** | **-3354,3** | **-3051,6** | **-2673,7** | **-2639,1** | **-2624,3** |
| **Kəsrin maliyyələşmə mənbələri** | **2062,6** | **3354,3** | **3051,6** | **2673,7** | **2639,1** | **2624,3** |

Dövlət büdcəsinin gəlirləri.

2025-ci ildə xam neftin bir barrelinin orta illik ixrac qiyməti 70 ABŞ dolları səviyyəsində götürülməklə 2025-ci il dövlət büdcəsinin gəlirləri ÜDM-in 28,3 faizi həcmində yəni 36 milyard 616,0 milyon manat nəzərdə tutulur ki, bunun da 46,6 faizi və ya 17 milyard 73 milyon manatı neft-qaz sektorunun, 53,4 faizi və ya 19 milyard 543 milyon manatı qeyri-neft/qaz sektorunun payına düşür.

2025-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 42,3 faizini və ya 15 milyard 500,0 milyon manat təşkil edəcəkdir ki, bu da cari ilin dürüstləşdirilmiş proqnozundan 230,0 milyon manat və ya 1,5 faiz çox, 2023-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 626,7 milyon manat və ya 3,9 faiz azdır.

Bununla yanaşı, növbəti ildə dövlət büdcəsi gəlirlərinin 12 milyard 781,0 milyon manatı və ya 34,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 6600,0 milyon manatı və ya 18,0 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 840,0 milyon manatı və ya 2,3 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 895,0 milyon manatı və ya 2,4 faizi isə sair gəlirlərin payına düşür. 2025-ci ildə neft-qaz sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 74,9 faizini və ya 12 milyard 781,0 milyon manatını Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert (cari il ilə eyni məbləğdə), 22,4 faizini və ya 3 milyard 830,0 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar, 2,7 faizini və ya 462,0 milyon manatını isə digər neft daxilolmalar (ARDNŞ üzrə dividendlər) təşkil edir. Növbəti ildə qeyri-neft/qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 59,7 faizini vergi orqanlarının xətti ilə daxilolmalar, 33,8 faizini gömrük orqanlarının xətti ilə daxilolmalar, 4,3 faizini büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, 2,2 faizini sair gəlirlər təşkil edəcəkdir .

Cədvəl 6. 2025-ci il dövlət büüdcəsinin vergi və qeyri-vergi gəlirlərinin proqnoz göstəriciləri. milyon manat

| Büdcə daxilolmalarını təmin edən orqanlar | Proqnoz |
|---|---|
| Dövlət büdcəsinin gəlirləri, o cümlədən | 36616,0 |
| Vergi gəlirləri, o cümlədən | 19647,0 |
| İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, o cümlədən | 14857,0 |
| fiziki şəxslərin gəlir vergisi | 1989,0 |
| hüquqi şəxslərin mənfəət vergisi | 6344,0 |
| əlavə dəyər vergisi | 3758,2 |
| aksizlər | 1655,7 |
| hüquqi şəxslərin əmlak vergisi | 392,6 |
| hüquqi şəxslərin torpaq vergisi | 46,7 |
| mədən vergisi | 160,0 |
| sadələşdirilmiş vergi | 405,0 |
| yol vergisi | 105,8 |
| Dövlət Gömrük Komitəsi, o cümlədən | 4790,0 |
| əlavə dəyər vergisi | 4568,0 |
| aksizlər | 185,0 |
| yol vergisi | 37,0 |
| Qeyri-vergi gəlirləri, o cümlədən | 16969,0 |
| İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, o cümlədən | 643,0 |
| dövlət rüsumu | 390,0 |
| sair daxilolma | 253,0 |
| Dövlət Gömrük Komitəsi, o cümlədən | 1810,0 |
| gömrük rüsumları | 1810,0 |
| İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 34,0 |
| Dövlət Neft Fondundan daxiolmalar | 12781,0 |
| Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 840,0 |
| Sair | 861,0 |

Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.

## Dövlət büdcəsinin xərcləri.

Dövlət büdcəsinin xərcləri 2025-ci il üçün artımla proqnozlaşdırılmışdır. Cari iln büdcəsi ilə müqayisədə 8 bölmə üzrə artım, 4 bölmə üzrə isə azalma olmuşdur. Müdafiə və mili təhlükəsizlik üçün nəzərdə tutulmuş xərclər bu artımın əsasını təşkil etmişdir. Gələn il üçün büdcənin xərcləri 41 milyard 367.6 milyon manat olacağı nəzərdə tutulur ki, bu da cari ilin büdcəsindən 1milyard 625.3 milyon manat və ya 4.1% çoxdur.

Funksional təsnifat üzrə 2025-ci ildə iqtisadi fəaliyyət xərclərinə 8 milyard 455.0 milyon manat (xüsusi çəkisi 21,3 faiz), ümumi dövlət xidmətləri üzrə xərclərinə 5 milyard 241,3 milyon manat (xüsusi çəkisi 13,2 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 6 milyard 658.3 milyon manat (xüsusi çəkisi 16,8 faiz), təhsil xərclərinə 4 milyard 945.8 milyon manat (xüsusi çəkisi 12,5 faiz), səhiyyə xərclərinə 1 milyard 997.2 milyon manat (xüsusi çəkisi 5,0 faiz), sosial müdafiə və sosial təminat üzrə xərclərinə 4 milyard 998.0 milyon manat (xüsusi çəkisi 12,6 faiz), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərinə 3 milyard 207.7 milyon manat (xüsusi çəkisi 8,1 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 635.3 milyon manat (xüsusi çəkisi 1,6 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərinə 1 milyard 573,2 milyon manat (xüsusi çəkisi 4,0 faiz), ətraf mühitin mühafizəsi üzrə xərclərinə 417.7 milyon manat (xüsusi çəkisi 1,1 faiz), kənd təsərrüfatı üzrə xərclərinə 1 milyard 171.9 milyon manat (xüsusi çəkisi 3,0 faiz), mənzil və kommunal təsərrüfatı üzrə xərclərinə isə 366.2 milyon manat (xüsusi çəkisi 0,9 faiz) vəsait yönəldilməsi proqnozlaşdırılır (Şəkil 6).

Şəkil 6.Funksional təsnifatın bölmələri üzrə dövlət büdcəsi xərcləri ,milyon manatla və payları, %-lə




Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi.

Qeyd olunanlara əlavə olaraq xərc siyasəti aşağıdakı istiqamətlər əsas götürülərək həyata keçiriləcəkdir:

- Səhiyyə xərclərinin, o cümlədən İcbari Tibbi Sığortanın maliyyə təminatı;

-Təhsil xərclərinin, o cümlədən dövlət sifarişi ilə ali təhsil alanların, təqaüd yerlərinin sayının artırılmasının və tələbə kreditinin maliyyə təminatı, təhsil müəssisələrində

informasiya kommunikasiya texnologiyalarının tətbiqi üzrə artan tələbatın qarşılanması;
- Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün maliyyə dəstəyinin və subsidiyaların ayrılması;
- Müdafiə olunan xərclərinin, o cümlədən əməyin ödənişi, təqaüd və pensiyalar, başqa sosial müavinətlər, dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyə təminatı;
- Dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş digər dövlət proqramlarının və tədbirlərinin maliyyə təminatı.

Gələn ilin büdcəsində ən çox artım ”Müdafiə və milli təhlükəsizlik” bölməsi üzrə 8 milyard 396.3 milyon manat və ya proqnozlaşdırılan büdcənin 20.3%-i qədər nəzərdə tutulmuşdur(Cədvəl 7).Bu bölmə üzrə artımın əsas səbəbi xüsusi müdafiə təyintlı layihələr və tədbirlər üzrə xərclərin artımı ilə əlaqədardır. Təbii ki, dövlətin davamlı fəaliyyəti və sosial-iqtisadi sabitliyin qorunması üçün daxili və xarici təhdidlər zamanı təhlükəsizliyin, o cümlədən “güc” maddələrinin maliyyələşdirilməsi yolu ilə təmin edilməsi zəruri şərtdir. Buna baxmayaraq, cəmiyyətin müəyyən bir büdcə strukturu üçün ödəməli olduğu "qiyməti" başa düşərək, qeyri-məhsuldar xərclərin tələb olunan səviyyəsini müəyyən etmək üçün balanslaşdırılmış yanaşma lazımdır.

Xərclər üzrə ikinci ən böyük artım ”Ümumi dövlət xidmətləri’’ bölməsində 5 milyard 247.3 milyon manat proqnozlaşdırılmışdır(Cədvəl 7) ki,bu da əsasən gələn ilin dövlət borcuna xidmət xərclərinin artması ilə əlaqədardır.Dövlət borcuna xidmət xərclərinin artmasına səbəb isə ‘’Aqrarkredit’’ QSC-nin Mərkəzi Bank qarşısında olan dövlət zəmznətli öhdəliklərinin müvafiq ilə olan istiqraz və onların faiz borcları,eləcə də 2 dövlət müəssisəsi əvəzinə zəmanətli dövlət borcu,eyni zamanda Hökumətin beynəlxalq maliyyə-kredit təşkilatlarından birbaşa götürdüyü kredit ödənişləri ilə əlaqədardır.

Funksional təsnifatın böyük artım proqnazlaşdırıldığı digər bölməsi ‘’Sosial müdafə və sosial təminat”dır.Bu bölmə üzrə 4 milyard 811.8 milyon manat nəzərdə tutulmuşdur. Gələn 2025 ci il büdcəsində pensiya və müavinətlərin 8% artırılması nəzərdə tutulur.Milli Məclisin deputatı Vüqar Bayramov bu ödənişlərin daha da sosial tutumlu olması üçün pensiya artımının diferensial olmasını təklif edir.O minimum pensiya alan vətəndaşların pensiyalarında 8 % deyil,daha yüksək artım olmasını ,yüksək pensiya alanların pensiyaları 8%- dən aşağı artırılmasını təklif edir. DSMF ödənişləri üzrə artım dinamikası büdcənin bu istiqamətdə xərclərinin qeyri müəyyənliyini göstərir.Sığorta fondlarının sığorta prinsipləri ilə əlaqədar olmaması bu Fondların dayanıqlığına mənfi təsir edir.

Cədvəl 7.Funksional təsnifatın bölmələri üzrə dövlət büdcəsinin xərcləri,milyon manat.

| Funksional təsnifatın bölmələri | 2023 | 2024 | 2025 |
|---|---|---|---|
| | İcra. | Gözlənilən. | Proqnoz. |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 2612.0 | 1733.1 | 1573,2 |
| İqtisadi fəaliyyət | 9320.3 | 9835.3 | 8455 |
| Ətraf mühitin mühafizəsi | 358.6 | 371.2 | 417,7 |
| Kənd təsərrüfatı | 947.6 | 1184.6 | 1171,9 |
| Mənzil və kommunal təsərrüfatı | 332.4 | 361.6 | 364,2 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 463.4 | 567.0 | 635,3 |
| Sosial müdafiə və sosial təminat | 4281.5 | 4325.6 | 4998 |
| Səhiyyə | 1722.1 | 1838.4 | 1999,4 |
| Təhsil | 4124.8 | 4482.1 | 4946,1 |

| | | | |
|---|---|---|---|
| Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2671.3 | 3043.5 | 3207,7 |
| Müdafiə və milli təhlükəsizlik | 5854.8 | 7019.5 | 8396.3 |
| Ümumi dövlət xidmətləri | 3769.0 | 4494.1 | 5247.3 |

Mənbə: Azərbaycan Respublikasının Hesablama Palatası.

Xərclərin funksional təsnifatı üzrə növbəti ildə ən çox azalma “ Iqtisadi fəaliyyət” bölməsi üzrə cari illə müqayisədə 1 milyard 458.6 milyon manat (14.7%) nəzərdə tutulmuşdur(Cədvəl 7). Belə ki, növəbəti ilin büdcəsində bu bölmə xərclər üzrə ən böyük paya malik olaraq, 8 milyard 444.1milyon manat (20.4%) nəzərdə tutulmuşdur.Azalmanın əsas səbəbləri işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərclərinin 855.8 milyon manat,dövlət əsaslı vəsait qoyuluşu xərclərinin 568.6 milyon manat azlması ilə əlaqədardır.

Gələn ilin dövlət büdcəsində “Təhsil” bölməsinin xərcləri 4 milyard 946.1 milyon manat proqnozlaşdırılır ki,bu da 2025-ci ilin dövlət büdcəsinin 12%-ni təşkil edir.Təqdim edilmiş büdcə sənədlərinə görə ”Peşə təhsili” və “Ali təhsil” köməkçi bölmələri istisna olaraq,digər köməkçi bölmələr üzrə artım proqnozlaşdırılmayıb.

Növbəti ildə “Səhiyyə” bölməsi üzrə 1 milyard 999.4 milyon manat (4.8%) cari illə müqayisədə 161 milyon manat və ya 9% çoxdur.Bu bölmədə əsasən İcbari Tibbi Sığorta Fonduna ayrılan vəsaitlə bağlı artım olmuşdur(9%).

1970-1990-cı illər ərzində 30 inkişaf etməkdə olan ölkədə dövlət xərclərinə dair məlumatlar (bax: Bose et al., 2007) iqtisadi artıma yalnız təhsil xərclərinin əhəmiyyətli müsbət təsiri, büdcə xərclərinin digər sahələrinin təsiri əhəmiyyətsiz olduğu ortaya çıxdı. 1971-ci ildən 2000-ci ilə qədər 118 inkişaf etməkdə olan ölkə üzrə məlumatları təhlil edən müəlliflər (Baldacci et al., 2008) təhsilə dövlət xərclərinin müsbət və əhəmiyyətli təsirini aşkar ediblər və kapitalın artırılması hesabına iqtisadi artıma səhiyyə bu ərazilərdə. Üstəlik, arasında qarşılıqlı əlaqə var təhsilə və səhiyyəyə xərclər: daha savadlı şəxslər bu sahədə xidmətlərin daha yüksək keyfiyyət və kəmiyyət tələb edir səhiyyə və əksinə: səhiyyə sektorunun böyüməsi tibb işçilərindən təhsil sahəsində əldə edilmiş yüksək bilik və ixtisas tələb edir. Eyni araşdırmanın nəticələrinə görə, təhsilə ayrılan xərclərin ÜDM-in 1 faiz bəndi artması adambaşına düşən ÜDM-in orta illik artım tempini növbəti 15 ildə 1,4 faiz bənd artırır. Səhiyyəyə dövlət xərclərinin ÜDM-də 1 faiz artımı adambaşına orta illik ÜDM-in 0,5 faiz bəndi artmasına səbəb olur. qeyd etdi bu xərclərin iqtisadi artıma müsbət təsirinin qeydə alındığı əhəmiyyətli vaxt gecikməsi: birbaşa xərclərin təxminən 2/3 hissəsi təhsil xərclərinin təsiri ilk 5 ildə müşahidə edilir, lakin tam effekti yalnız 10-15 ildən sonra gözləmək olar.

Növbəti ildə dövlət əsaslı vəsait qoyuluşu xərcləri 2 milyard 685.4 milyon manat,cari illə müqayisədə 17.5% az proqnozlaşdırılmışdır.Dövlət büdcəsi xərclərinin dövlət əsaslı vəsait qoyuluşu bölməsi üzrə infrastruktur layihələri məbləğ baxımından çox, say baxımından sosialyönümlü layihələrin payı (50.3%) üstünlük təşkil edir.

2025-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin qurulması və bərpası 4 milyard manat bu da cari il üçün nəzərdə tutulduğundan 17.6% və ya 855.8 milyon manat azdır. Bu isə öz növbəsində Böyük Qayıdışa dair I Dövlət Proqramının müddətinin uzadılması ilə nəticələnə bilər.

“Ətraf mühitin mühafizəsi” bölməsi üzrə gələn ilin büdcəsində 417.7 milyon manat nəzərdə tutulmuşdur.Ətraf müühitin keyfiyyətinin yaxşılaşdırılması dünyada ən aktual mövzulardan biridir.İqlim dəyişiliklərinin səbəb olduğu bir çox problemlər dərinləşməkdə davam etdikcə iqtisadi itkilər böyüyür,bununla əlaqədar dövlətlərin xərcləri artır.Son 10 ildə Yer kürəsində temperaturun 1.22 dərəcə Selsi artması təbii fəlakətlərin artmasına gətirib çıxarmışdır ki,bu isə öz növbəsində dövlətlərə böyük sosial- iqtisadi problemlər

yaradır və yaradacaqdır.Ona görə də bu problemlərin qarşısını almaq üçün dövlətlər böyük xərclər edirlər. Ümumiyyətlə yaşıl iqtisadiyyatın inkişafı karbon emissiyasının azaldılması,hava və suyun keyfiyyətininin yaxşılaşdırılması, biomüxtəlifliyin qorunması və sair kimi üstünlüklərilə yanaşı,iqtisadi və sosial üstünlükləri də vardır.Belə ki,Azərbaycanın coğrafi mövqeyi imkan verir ki,bundan daha çox faydalansın.Yaşıl iqtisadiyyatın inkişafı Azərbaycanın mövcud iqtisadi siyasətinə integrasiya olunaraq ölkənin dayanıqlı iqtisadi inkişafını sürətləndirə bilər.

İlk dəfədir ki,2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində ətraf mühitin mühafizəsi,kənd təsərrüfatı sektoru, ekoloji profilli məqsədli büdcə fondları və "yaşıl büdcə" üzrə xərclərin işarələnməsinə başlanılıb. 2025-ci ildə bu istiqamət üzrə 1 milyard 300 milyon manat vəsaitin 1 milyard manatı iqlim dəyişiklikləri üzrə adaptasiya və mitiqasiya tədbirlərinə, 300 milyon manatı isə ətraf mühitin mühafizəsi tədbirlərinə yönəldiləcək. Ekologiya sahəsində fəliyyət göstərən fondlardan “Nəqliyyat vasitələrinin utilizasiyası’’ fonduna növbəti ildə 50 milyon manat vəsait ayrılacağı proqnozlaşdırılır ki,bu da cari ildəkindən 2 dəfə çoxdur.

## Dövlət büdcəsinin kəsiri.

2025-ci ildə dövlət büdcəsinin kəsiri 3 milyard 51,6 milyon manat proqnozlaşdırılır ki, bunun da 2 milyard 672,3 milyon manatının (87,6 faiz) borclanma, 250,0 milyon manatının (8,2 faiz) vahid xəzinə hesabının qalığı, 110,0 milyon manatının (3,6 faiz) özəlləşmədən daxilolmalar və 19,3 milyon manatının (0,6 faiz) məqsədli büdcə fondlarının vəsaitinin qalığı hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.Təqdim edilən məlumatlara əsasən növbəti ildə nəzərdə tutlan 12 prioritet (bunlardan 4-ü davam edən,8-i isə imzalanması nəzərdə tutulan) layihənin həyata keçirilməsi üçün 895.9 milyon manat(büdcə kəsirinin 29.4%-i) xaricdən cəlb edilən kreditlər hesabına proqnozlaşdırılır.

## Nəticə və təkliflər.

Bu məqalədə büdcə xərclərinin dinamik təhlili və onların idarə edilməsi yolları şərh olunmuşdur. Burada dövlət büdcəsinin funksional quruluşundan, həyata keçirdiyi əsas funksiyalardan və onların izahından söhbət açılır. Həmçinin ölkədə 2025-ci il büdcə xərclərinin istiqamətləri, xərclərin müasir vəziyyətinin dinamik təhlili, büdcə xərclərinin düzgün xərclənməsi və müasir vəziyyətə necə uyğunlaşdırılması haqqında məlumatlara yer verilmişdir.

Dünyada və ölkədə baş verən reallıqlar nəzərə alınmaqla, neft gəlirlərinin azalması, dünyada dərinləşən geosiyasi və iqtisadi risklər , onun təsirləri nəzərə alınmaqla və ciddi qənaət rejimi əsas tutulmaqla Azərbaycanın 2025-ci il və növbət 3 il üçün dövlət büdcəsi üzrə proqnozların yerinə yetməsi üçün aşağıdakıları təklif edilir;

- Qısa və ortamüddətli büdcə balansının risklərdən qorunması;

- Uzunmüddətli fiskal dayanıqlığın təmin edilməsi;

- İqtisadi artım üçün əlverişli şəraitin yaradılması.

-Büdcə xərcləri dinamikasının təhlili, qiymətləndirilməsi və inkişaf meyillərinin əsaslandırılması;

- Büdcə xərclərindən səmərəli istifadə olunması metodlarının təkmilləşdirilməsi;

- Büdcə xərclərindən səmərəli və düzgün istifadəsinin ölkə iqtisadiyyatına təsirinin öyrənilməsi ;
-Ölkədə yeni şəraitlə uyğun olaraq pul və fiskal siyasətin daha sıx əlaqələndirilməsi istiqamətində tədbirlərin görülməsi;

- Valyuta bazarlarında sağlam və dayanıqlı maliyyə vasitəçiliyinin təmin olunması üzərində maliyyə nəzarətinin daha da gücləndirilməsi;

- Iqtisadiyyatın daha çox şaxələndirilməsi yolu ilə qeyri-neft sektoru üzrə ixracın artırılması məqsədilə kənd təsərrüfatı ilə sənayenin qarşılıqlı əlaqə formasında inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;

- Büdcə prosesinin təkmilləşdirilməsi məqsədilə büdcə təşkilatlarının xərc normalarına yenidən baxılması,müvafiq xərc norma və normativlərinin müəyyən edilməsi;

-Yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi.

## İstifadə olunmuş ədəbiyyat və linklər


1) Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu

2)Azərbaycan Respublikasının 2025-ci il büdcəsinin layihəsinə Azərbaycan Respubliksası Hesablama Palatasının Rəyi, Bakı-2024

3)Bayramov, V. & Orujova, L. (2017). Volatility, Diversification and Oil Shock in Resource-Rich Turkic Countries: Avenues for Recovery . Bilig , Special Issue on Eurasian Political Economy , 303- 329 . Retrieved from https://dergipark.org.tr/en/pub/bilig/issue/42612/519424

4) Bayramov, V., & Abbas, G. (2017). Oil shock in the Caspian Basin: Diversification policy and subsidized economies. Resources Policy, 54, 149–156. https://doi.org/10.1016/j.resourpol.2017.10.006

5) Bayramov, V., Hasanov, R., & Gasimova, N. (2021). Perspectives on the Analysis and Development of Social Policies in Azerbaijan. SpringerLink. https://link.springer.com/chapter/10.1007/978-3-030-57753-7_10?error=cookies_not_supported&code=5d9393a6-e46c-4f5e-9b2d-2bf151f8c284

6) https://cesd.az/new/wp-content/uploads/2020/08/Amendments_State_Budget_2020_Azerbaijan.pdf

7 ) Bayramov, V. (2008). A Comparative Analysis of CIS Countries' WTO Accession; Ways to European Integration, http://siteresources.worldbank.org/INTRAD/Resources/Bayramov.pdf

8) Bayramov, V., Safarova, G., Garajayev, M. (2023). Economic Effects of Belt and Road Initiative: The Case of Southern Caucasus and Central Asia Countries. In: Wang, L. (eds) China's Development and the Construction of the Community with a Shared Future for Mankind. Research Series on the Chinese Dream and China's Development Path. Springer, Singapore. https://doi.org/10.1007/978-981-19-7423-6_50

9) Bayramov, V. (2008). A Comparative Analysis of CIS Countries' WTO Accession; Ways to European Integration, http://siteresources.worldbank.org/INTRAD/Resources/Bayramov.pdf

10) Nigar Islamli ,Amendments in the 2022 State Budget of Azerbaijan: Impacts and Perspectives https://cesd.az/y/read.php?id=180

11) Ələkbərov Ə.Ə. – Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu, Bakı-2005.

12) Xankişiyev B.A. - Büdcə prosesi və büdcə təsnifatı, Bakı-2002

14) Кудрин А.Л., Кнобель А.Ю. Бюджетная политика как источник экономического роста. Вопросы экономики. 2017;(10):5-26.

15) Идрисов Г., Синельников-Мурылев С. (2013). Бюджетная политика и экономический рост. Вопросы экономики. № 8. С. 35—59.

16)Baldacci E., Clements B., Gupta S., Cui Q. (2008). Social spending, human capital, and growth in developing countries. World Development, Vol. 36, No. 8, pp. 1317—1341.

17) Barro R. J. (1991). Economic growth in a cross section of countries. Quarterly Journal of Economics, Vol. 106, No. 2, pp. 407—443.

18) Born B., Juessen F., Muller G. (2013). Exchange rate regimes and fiscal multipliers. Journal of Economic Dynamics and Control, Vol. 37, No. 2, pp. 446—465.

19) Bose N., Haque M. E., Osborn D. R. (2007). Public expenditure and economic growth: A disaggregated analysis for developing countries. The Manchester School, Vol. 75, No. 5, pp. 533-556.

20) Murad Agayev. The European Green Deal: Assessing the Potential Economic Impacts of a Carbon Border Adjustment Mechanism. https://cesd.az/y/panel/uploads/19606617209-CESDPaperCarbonBorderAdjustmentMechanism.pdf